# Leyla Əliyevanın şeir yaradıcılığı türk poeziyasına yeni bədii ruh gətirəcək

## "Sanki bir alovsan" adlı şeirlər toplusu Ankarada nəşr olunub




**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın "Sanki bir alovsan" adlı şeirlər toplusu Ankarada nəşr olunub. "Kaspi" təhsil şirkətinin təsisçisi, filologiya üzrə fəlsəfə doktoru, yazıçı-publisist Sona Vəliyevanın rəhbərliyi ilə "Azərbaycan ədəbiyyatını tanıdaq!" devizi altında həyata keçirilən layihə çərçivəsində nəşrə hazırlanan kitab Avrasiya Yazıçılar Birliyi tərəfindən çap edilib.**

AZƏRTAC xəbər verir ki, "Sanki bir alovsan" şeirlər toplusu Türkiyənin nüfuzlu "BENGÜ" yayınları brendi ilə oxuculara təqdim olunan "Azərbaycan ədəbiyyatı"nın seçilən nəşrləri sırasına daxildir. Avrasiya Yazıçılar Birliyinin sədri Yaqub Öməroğlunun rəhbərliyi ilə işıq üzü görən bu nəşrlər türk dünyasının görkəmli yazıçı və şairlərinin əsərlərini təqdim edir.

Qeyd edək ki, indiyədək Leyla Əliyevanın "Dünya yuxutək əriyir..." şeirlər kitabı Bakıda Azərbaycan dilində, Tehranda farsca, Daşkənddə özbəkcə, Londonda ingiliscə, "Ulduzlar göylərdə düzülsəydi sırayla" kitabı Moskvada rusca, Minskdə Belarus dilində nəşr olunub və geniş oxucu kütləsinin sevgisini qazanıb. Bundan başqa, şairənin "Mənə güc ver, Allahım", "Elegiya", "Tək deyilsən", "Sevgi və nifrət", "Kor olmuşam", "Şeirim", "İnsanlar", "Getmə", "Bakı" və digər şeirləri təkcə yuxarıda adları çəkilən kitablarda yox, həm də müxtəlif ölkələrdə zaman-zaman dərc olunan ədəbiyyat jurnalları və qəzetlərində poeziyasevərlərə təqdim edilib.

Ankarada nəşr olunan "Sanki bir alovsan" nəşrinin redaktoru AZƏRTAC-ın Türkiyə bürosunun rəhbəri, siyasi elmlər üzrə fəlsəfə doktoru Sabir Şahtaxtıdır. Şeirlər tanınmış tərcüməçi, yazıçı Mətin Yıldırım tərəfindən Anadolu türkcəsinə uyğunlaşdırılıb.

"Sanki bir alovsan" şeirlər toplusunun ön sözündə oxuyuruq: "Leyla xanım həm rəsm, həm də şeir yaradıcılığında təbiət hadisələri ilə bağlı həssas hisslər nümayiş etdirir, özünün həyata real baxışlarıyla zəngin təxəyyülü arasında həzin bir harmoniya yarada bilir. Şairənin seçdiyi həssas mövzular və nümayiş etdirdiyi bədii təxəyyül oxucunu hədsiz duyğulandırır".

"Türk poeziyasında yeni bir ruh" sərlövhəli ön sözdə Leyla xanımın poeziya yaradıcılığı ilə dünya şöhrətli nasirlərin bədii əsərlərində rast gəlinən maraqlı ifadə oxşarlıqları müqayisəli şəkildə diqqətə çatdırılır. Məsələn, "Zaman" adlı şeirində şairə zamanın sürətli axarı barədə düşüncələrini cilalanmış ifadələrlə, incə çalarlarla təsvir edə bilib. Əfqan əsilli ABŞ yazıçısı Xalid Hüseyn məşhur "Çərpələng uçuran" əsərində zamanın sürətli axarından gileylənərək yazır: "Kaş ki, zamanı durdura bilərdim". Leyla Əliyeva isə zamanın çay kimi dayanmadan axmasından, həyatın sürətlə dəyişməsindən narahatlığını belə ifadə edir:

***Zaman, ayaq saxla, dayan bir anlıq,***
***Dayan, gözlə məni, sözümü dinlə.***
***Hara tələsirsən? Gizlətmə danış,***
***Bölərəm sirrimi mən də səninlə.***

Ürək, zaman, sevgi, gözəllik və digər mövzularda yazdığı şeirlər müəllifi poeziya səltənətinin axarına qoşaraq sonsuzluğa doğru aparır. Leyla xanım öz düşüncə və duyğularını oxucuya çox səmimi və poetik bir dildə çatdırır. Misralardakı səmimiyyət sanki sapa düzülərək bir-birinə yol açır, özündən sonrakı ifadənin yoluna işıq tutur, nur ələyir. "Bakı" şeirində olduğu kimi:

***Qərib ölkələrdə xatırlayarkən,***
***Olur ki, tökürəm göz yaşı səssiz.***
***Səni dərk etmədən, heyran qalıram...***
***Əgər dərk etsəm mən, dözmərəm sənsiz.***

Ümumiyyətlə, Leyla xanımın toxunduğu bütün mövzular oxucunu duyğulandırır. O, poetik ustalıqla dünyaya boylanaraq, bütün qitələri, meşələri, dağları, çayları dolaşaraq istədiyini axtarır, hiss və duyğularını məharətlə ifadə edərək oxucularla səmimi ünsiyyət yaradır. İdeallıq, təmizlik, paklıq axtarışı Leyla xanımın poeziya yolunda işıqlı bir xətdir və onun bütün yaradıcılığında aydın görünür.

"Sanki bir alovsan" Leyla Əliyevanın indiyədək ən çox şeirinin toplandığı kitabdır. Heç şübhəsiz ki, şairənin türk ictimaiyyətinə ilk dəfə təqdim olunan şeirlər toplusu qardaş ölkədə həm poeziyasevərlərin, həm də bəstəkar və qiraətçilərin diqqətini cəlb edəcək.